# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 544** **Bakı şəhəri, 8 dekabr 2017-ci il**

***“Fiziki şəxs barəsində icra sənədi icra olunarkən tələbin yönəldilməsinə yol verilməyən əmlak növlərinin dəqiq Siyahısının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 5 iyun tarixli 89 nömrəli qərarında dəyişiklik edilməsi haqqında***

“Daşınar əmlakın yüklülüyü haqqında” Azərbaycan Respub-likasının 2017-ci il 2 may tarixli 667-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 may tarixli 1420 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 5 iyun tarixli 89 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 6, maddə 374; 2008, № 8, maddə 787; 2010, № 11, maddə 1040) ilə təsdiq edilmiş “Fiziki şəxs barəsində icra sənədi icra olunarkən tələbin yönəldilməsinə yol verilməyən əmlak növlərinin dəqiq Siyahısı”nın “Qeyd”ində “girov və ipoteka ilə” sözləri “ipoteka ilə və qanunla müəyyən edilmiş qaydada daşınar əmlakın yüklülüyünün xüsusi növü ilə” sözləri ilə əvəz edilsin.

***Artur RASİ-ZADƏ***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti.- 2017-.- 12 dekabr.- S.9.